**N.A.ƏLİZADƏ**
*müəllim*
*e-mail: nahide.alizada@gmail.com*
**:https://orcid.org/0009-0006-5158-7050**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.3.408**

# İNGİLİS DİLİ TƏDRİSİNDƏ MÜASİR TƏLİM METODLARININ TƏTBİQİ VƏ TƏLƏBƏ MOTİVASİYA PROSESLƏRİ

***Xülasə.*** *Müasir təhsil texnologiyanın inkişafı ilə böyük dəyişikliklərə uğrayıb. Ənənəvi sinif dərslərini tamamlayan onlayn və texnoloji əsaslı yanaşmalar təhsili daha əlçatan və interaktiv edir. Müasir metodlar – tərs sinif, aralı öyrənmə, oyunlaşdırma, öz-özünə öyrənmə – tələbələrin fəal iştirakını, tənqidi düşünmə və problem həlletmə bacarıqlarını gücləndirir. Texnologiyanın inteqrasiyası və motivasiya, xüsusilə dil öyrənməsində, uğurun əsas şərtləridir. Müəllimin rolu yalnız məlumat ötürmək deyil, həm də öyrənəni yönləndirmək və öyrənməyə həvəs yaratmaqdır.*

***Açar sözlər:*** *müasir təlim metodları, texnologiya, motivasiya, müəllimin rolu*

Təhsil insan sivilizasiyasının inkişafında mühüm rol oynayır. Qədim dövrlərdən bəri öyrənmə prosesi daim inkişaf etmiş və texnologiyanın tərəqqisi bu sahədə bir sıra dəyişikliklərə səbəb olmuşdur. Hamımıza ənənəvi təhsil metodları – şagirdlərin sinif otağında müəllimdən dərs alması yaxşı tanışdır. Lakin internetin meydana çıxması və texnoloji inkişaf nəticəsində onlayn təhsil forması getdikcə daha çox populyarlaşır və ənənəvi sinif mühitini əvəz edir. Mövcud təhsil sistemi sayəsində fiziki sinif məkanının məhdudiyyətləri aradan qaldırılmış və bu, dünyanın müxtəlif yerlərində olan çox sayda tələbənin eyni anda təhsildən yararlanmasına şərait yaratmışdır. Onlayn təhsil strategiyaları tələbələr üçün daha cəlbedici olmaqla yanaşı, onların fəal iştirakını təşviq edir və qlobal miqyasda öyrənməni daha əlçatan edir.

Müasir tədris metodları dövrün tələbinə çevrilmişdir, çünki bu metodlar tələbələrin texnologiyaya uyğunlaşmasını və tədris prosesində daimi iştirakını təmin edir. Müasir təlim strategiyalarının əsas məqsədi tələbələrin dərs prosesinə cəlb olunmasını artırmaq, tədrisi daha dinamik və onların maraqlarına uyğun şəkildə təşkil etməkdir. Bu yanaşmalar motivasiyanı artırır, əməkdaşlıq və qrup işini təşviq edir, eyni zamanda sosial bacarıqların inkişafına kömək edir. Müasir təlim metodları texnologiya və multimedia resurslarından istifadə etməklə daha inklüziv, fəal və interaktiv öyrənmə mühiti yarada bilər.

Müasir dünyada internetə ehtiyac və ondan istifadə imkanları artmaqda, mobil telefonlar isə gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməkdədir. Mobil qurğular və internet bağlantısı sayəsində tələbələr coğrafi məkanlarından asılı olmayaraq təhsillərini davam etdirə bilirlər. Bu texnologiyalar aktiv öyrənmə və iştirak vasitəsilə təhsildə fasiləsizliyi təmin edir. Bu üsullar tələbələrin yaradıcı, innovativ və təsəvvür qabiliyyətini inkişaf etdirməyə kömək edir. Eyni zamanda tənqidi düşünmə, problem həll etmə və qərarvermə bacarıqlarını da gücləndirir. Müasir tədris strategiyaları tələbələri yeni ideyalar irəli sürməyə və onları tətbiq etməyə təşviq edir. Bu, tələbələrin sadəcə qaydalara əməl etməkdən daha çox, yenilikçi düşünmələrini və təşəbbüskar olmalarını dəstəkləyir.

Mövcud tədris yanaşmaları fəal və tələbə yönümlü olmaqla onların təhsil prosesinə tam şəkildə cəlb olunmasını nəzərdə tutur. Bu günün dünyasında texnologiya tələbələrin öyrənmə

prosesinin inkişafı və təkmilləşdirilməsi üçün həlledici amildir. Buna görə də, bu dövrdə müasir tədris metodlarının tətbiqi olduqca vacibdir ki, şagirdlərə yüksək keyfiyyətli təhsil verilsin və onlar gələcək həyatlarına hazır olsunlar. Bu metodlar vasitəsilə şagirdlər XXI əsrin əsas bacarıqları – ünsiyyət, rəqəmsal savadlılıq və qlobal şüur ilə silahlanaraq, həm əmək bazarında, həm də cəmiyyətdə uğur qazana biləcəklər. Müəllimlər dərs prosesində müxtəlif müasir tədris metodlarından istifadə edə bilərlər. Lakin bunlar arasında ən çox tanınan və effektiv hesab olunan üsullar aşağıdakılardır:

**1. Kooperativ (əməkdaşlıq əsaslı) öyrənmə:** Kooperativ öyrənmə – müasir tədris yanaşmalarından biri olaraq – tələbələr arasında qarşılıqlı ünsiyyəti və komanda şəklində əməkdaşlığı təşviq edir. Bu metod mürəkkəb problemlərin birgə həlli və effektiv yanaşmaların müəyyənləşdirilməsi məqsədi daşıyır. Tələbələr bu prosesdə yalnız əməkdaşlıq bacarıqlarını inkişaf etdirmir, eyni zamanda müxtəlif baxış bucaqları və ideyalarla tanış olur, öz anlayışlarını dərinləşdirərək yanlış düşüncələri aradan qaldırmaq imkanı əldə edirlər.

**2. Aralı öyrənmə (Spaced Learning):** Aralı öyrənmə – tədris materialının müəyyən fasilələrlə bir neçə dəfə təkrarlandığı pedaqoji strategiyadır. Bu fasilələr adətən 10 dəqiqəlik olur və tələbələrin fiziki fəaliyyətlər və ya zehni rahatlama (mindfulness) məşqləri ilə məşğul olmaları üçün nəzərdə tutulur. Bu metodun əsas məqsədi tələbələrin informasiyanı daha yaxşı mənimsəməsini təmin etmək və "unudulma əyrisini" azaltmaqdır. Nəticədə, məlumatın uzunmüddətli yaddaşda saxlanılması güclənir.

**3. Tərs sinif modeli (Flipped Classroom):** Tərs sinif yanaşması ənənəvi ev tapşırığı modelini dəyişir. Bu metodda tələbələr yeni mövzularla əvvəlcədən – ev şəraitində tanış olur, dərs zamanı isə həmin bilikləri tətbiq etməklə təcrübə qazanırlar. Bu yanaşma tələbələrin sinifdə müəllim dəstəyindən maksimum yararlanmasını təmin edir, çünki sinifdəki vaxt artıq mövzu izahına deyil, dərinləşdirilmiş öyrənməyə və sualların cavablandırılmasına yönəldilir.

**4. Öz-özünə öyrənmə (Self-education):** Öz-özünə öyrənmə tələbələrin maraqlarını əsas tutaraq yeni mövzuları araşdırmalarını təşviq edir. Bu metod motivasiyanı artırır və unudulan məlumatın miqdarını azaldır. Müəllimlər bu prosesi təşviq etməklə tələbələrin analitik və tənqidi düşüncə bacarıqlarının inkişafına töhfə verir, onlarda müstəqil fikir formalaşdırmaq və yenilikçi ideyalar irəli sürmək qabiliyyətini gücləndirirlər.

**5. Oyunlaşdırma (Gamification):** Uşaqlar oyunlara maraq göstərdiyinə görə, müasir tədris metodları bu xüsusiyyətdən istifadə edərək öyrənməni əyləncəli hala gətirə bilər. Oyunlaşdırma yanaşması təhsil prosesinə oyun elementlərinin daxil edilməsini nəzərdə tutur. Bu metod tələbələrin öyrənməyə marağını artırır, onları motivasiya edir və tənqidi düşünmə bacarıqlarının inkişafına dəstək olan yeni bilik və bacarıqların formalaşmasına zəmin yaradır.

**6. Qarışıq (Krossover) öyrənmə:** Formal və qeyri-formal təhsil mühitləri arasında körpü rolunu oynayan qarışıq öyrənmə (crossover learning) metodu müasir dövrün şagirdləri üçün effektiv, lakin nisbətən az tanınan yanaşmadır. Sinif otaqları formal öyrənmə mühiti kimi qəbul edilir, lakin məktəbdənkənar fəaliyyətlər, muzeylərə səfərlər və seminarlar kimi qeyri-formal mühitlərdə şagirdlər sinifdə əldə etdikləri bilikləri tətbiq edərək yeni informasiyanı mənimsəyə bilirlər. Bu metod öyrənməni real həyatla əlaqələndirir və praktik biliklərin qazanılmasını asanlaşdırır.

**Müasir tədris metodlarının ən vacib xüsusiyyətləri aşağıdakılardır:**

**1. Təlim və öyrənmədə texnologiyanın inteqrasiyası:** Bunu qəbul etsək də, etməsək də, texnologiya bu gün təhsildə əsas rol oynayır. Texnologiya təlim və öyrənmə üsullarını tamamilə dəyişdirmiş və XXI əsrin təhsilinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. NETP-nin (2017) 7-ci səhifəsində qeyd edildiyi kimi, artıq müzakirə mövzusu texnologiyanın təhsildə istifadə olunub-olunmaması deyil, onun təhsili necə daha effektiv edə biləcəyi və bütün şagirdlərin yüksək keyfiyyətli təhsil imkanlarına çıxışını necə təmin edə biləcəyidir. Rəqəmsal alətlərin və resursların geniş şəkildə tətbiqi nəticəsində təhsil mühiti ciddi dəyişikliklərə məruz qalmışdır. Bu inteqrasiya virtual öyrənmə platformalarından, tədrisə dair tətbiqlərdən tut-

muş məktəblərdə elektron lövhələrin istifadəsinədək geniş bir spektri əhatə edir. Müasir sinif otaqlarında şagirdlər getdikcə daha çox rəqəmsal dərsliklərdən istifadə edir, onlayn forumlarda iştirak edir və tapşırıqları öyrənmə idarəetmə sistemləri (məsələn, LMS və ya Google Classroom) vasitəsilə təqdim edirlər. Texnologiya həmçinin fərdi öyrənmə prosesində də tətbiq olunur; burada uyğunlaşdırılmış öyrənmə sistemləri hər bir şagirdin ehtiyacına uyğun diferensiallaşdırılmış tədris imkanı yaradır. Quizlet, Khan Academy kimi platformalar şagirdin nailiyyətlərinə əsaslanaraq fərdi öyrənmə yolları təqdim edir və beləliklə, hər bir şagirdin öz sürətində öyrənməsi mümkün olur. Bundan əlavə, təhsildə texnologiya sadəcə öyrənmə vasitəsi deyil, özlüyündə ayrıca bir tədqiqat sahəsinə çevrilmişdir. Rəqəmsal savadlılıq, yəni texnologiyadan məqsədyönlü və effektiv şəkildə istifadə bacarığı – artıq məktəblərdə zəruri tədris mövzusu hesab olunur.

**2. Əməkdaşlıq əsaslı və interaktiv öyrənmə:** XXI əsr təhsilinin mühüm xüsusiyyətlərindən biri də interaktiv və əməkdaşlıq əsaslı öyrənmə modelinə keçiddir. Artıq ənənəvi "səhnədəki müdrik" (yəni yalnız müəllim mərkəzli dərs) yanaşması önəmini itirmiş və onun yerini kooperativ təlim metodları almışdır. Müasir sinif otaqlarında şagirdlər getdikcə daha çox birgə əməkdaşlıq edir, layihələr üzərində birlikdə çalışır, diskussiyalarda iştirak edirlər. Bu, sorğu əsaslı təhsil (inquiry-based learning), layihə əsaslı təhsil (project-based learning) və problem əsaslı təhsil (problem-based learning) kimi yanaşmaların tətbiqi ilə müəllim yönümlü təlimin əvəz olunması nəticəsində baş verir. Əməkdaşlıq əsaslı öyrənmə tələbələrin birgə tapşırıqlar üzərində işləməsini, aktiv (qarşılıqlı) öyrənmə mühitlərini və ümumi məqsədlərə çatmaq üçün təşkil olunmuş əməkdaşlığı təşviq edir. Bu interaktiv öyrənmə mərkəzləri müxtəlif təlim strategiyalarını – o cümlədən təhsil oyunları, təcrübələr, virtual laboratoriyalar – özündə birləşdirir ki, bu da şagirdlərin motivasiyasını artırır və onların praktik biliklər əldə etməsinə şərait yaradır. Əməkdaşlıq əsaslı tədris şagirdlərdə öz davranışlarına görə məsuliyyət hissi və hesabatlılıq formalaşdırır. Onlar müxtəlif baxış bucaqlarına qulaq asmağı, öz fikirlərini əsaslandıraraq ifadə etməyi və ortaq məqsədə çatmaq üçün komanda şəklində işləməyi öyrənirlər. Bu dəyişiklik təhsilin keyfiyyətini artırmaqla yanaşı, şagirdləri qarşılıqlı əməkdaşlıq və ünsiyyətin yüksək qiymətləndirildiyi bir dünyaya hazırlayır.

**3. Tənqidi düşünmə və problem həlletmə bacarığı:** Tənqidi düşünmə, Finn (2011) tərəfindən "təhlükəsiz və məqsədyönlü düşüncə tətbiqi… insanların gündəlik və ya peşəkar həyatlarında istifadə edə biləcəkləri öyrənilə bilən bacarıqlar toplusu" kimi xarakterizə olunur. Tənqidi düşünmənin əsas komponentlərindən biri məlumat və arqumentlərin diqqətlə və düşünülmüş şəkildə təhlili və qiymətləndirilməsidir [2]. Digər tərəfdən, problem həll etmə mürəkkəb vəziyyətlərə çıxış yolları tapmaq üçün mövcud bilik və tənqidi düşünmə bacarıqlarının istifadəsini tələb edir. Martinez (1998) problem həll etməni "hədəfə doğru irəliləmək prosesi, lakin həmin hədəfə çatmaq üçün yolun qeyri-müəyyən olduğu şəraitdə" kimi təsvir edir. Tənqidi düşünmə və problem həlletmə bir-birindən fərqlənsə də, yaxın əlaqəli və qarşılıqlı tamamlayıcı bacarıqlardır. Tənqidi düşünmə əsasən informasiyanın və ideyaların obyektiv qiymətləndirilməsi və təhlili ilə, müxtəlif baxış bucaqlarının anlaşılması və analiz edilməsi ilə bağlıdır. Bunun müqabilində, problem həlletmə həmin tənqidi anlayışların real vəziyyətlərə tətbiqi və praktik həll yollarının hazırlanması ilə əlaqədardır. Beləliklə, tənqidi düşünmə problemin geniş və hərtərəfli anlaşılması üçün baza rolunu oynayır, problem həll etmə isə bu anlayışların tətbiqi mərhələsidir [5]. Müasir təhsil mühitində bu bacarıqların inkişaf etdirilməsi vacib hesab olunur. Bu bacarıqların formalaşdırılması üçün müxtəlif tədris yanaşmaları tətbiq oluna bilər. Məsələn, layihə əsaslı öyrənmə (project-based learning) zamanı şagirdlər real həyatda mövcud olan problemlər üzərində çalışır, məlumatları təhlil edir, məntiqi nəticələr çıxarır və praktik həll yolları təklif edirlər. Sorğu əsaslı öyrənmə (inquiry-based learning) isə tələbələrin suallar verməsini və cavablar axtarmasını təşviq edərək tənqidi düşünmə və problem həlletmə bacarıqlarını inkişaf etdirir. Bu metodlar tələbələri passiv bilik qəbul edənlərdən aktiv öyrənənlərə çevirir və mövzuların daha dərindən mənimsənilməsini təmin edir.

Təhsil sahəsində müasir metodların tətbiqi öyrənmə prosesini daha interaktiv, inklüziv və texnologiya ilə zənginləşdirilmiş hala gətirir. Eyni zamanda, dil öyrənmə kimi spesifik sahələrdə də öyrənənin bilikləri mənalı kontekst və situasiyalar vasitəsilə əldə etməsi önəmlidir. Dil öyrənmə prosesi də digər təhsil sahələri kimi motivasiya, situasiya və öyrənmə strategiyalarının təsiri altında inkişaf edir. Beləliklə, təhsildə müasir yanaşmaların tətbiqi ilə yanaşı, dil öyrənmə prosesində də situasiyaya əsaslanan və motivasiyanı gücləndirən metodların rolu xüsusi önəm kəsb edir.

Dil öyrənmə problemi əsasən mənanı uyğun dil forması ilə əlaqələndirmə problemi kimi ortaya çıxır. Mənalar situasiyadan qaynaqlanır. İfadəni anlamaq üçün situasiya nəzərə alınmalıdır. Öyrənən ana dilini dinləyərkən, o, şüursuz şəkildə situasiya ilə ifadə arasında əlaqə yaradır. Heç bir izahata ehtiyac duymadan dili asanlıqla mənimsəyir. Buna görə də, öyrənənlərə dilin mənalı situasiyalarda istifadə olunduğunu dinləmək üçün kifayət qədər imkan yaratmaq və onlara belə situasiyalardan yararlanmaq fürsəti vermək vacibdir. M.A.K. Halliday qeyd edir ki, "Dil tədrisi iki əsas xüsusiyyəti əhatə edir: Birincisi, öyrənən dilin mənalı şəkildə, danışıq və ya yazı formasında istifadə edildiyini görməlidir; ikincisi isə, öyrənən öz bacarıqlarını sınamaq, səhvlər etmək və düzəldilmək imkanına malik olmalıdır. Bütün bunlar öyrənmənin əsasını təşkil edir" [7].

Öyrənmənin ən vacib qanunlarından biri Hazırlıq Qanunudur. Motivasiya dil öyrənmə prosesində böyük rol oynayır. Motivasiya psixoloji bir keyfiyyətdir ki, fərdi arzuladığı məqsədə çatmaq üçün təşviq edir. **Daxili motivasiya** insanın daxilindən gələn, özünü təşviq edən həvəsdir. **Xarici motivasiya** isə iş tələbi və ya digər xarici öhdəliklərdən qaynaqlanır. İngilis dili öyrənənlərin fərqli uğurları isə uğurlu nəticələr əldə etmək üçün strategiyaların nəzərdən keçirilməsinin vacibliyini göstərir. Dil müəllimləri motivasiyanın gücü sayəsində effektiv tədris apara bilərlər.

Motivasiya davranışımıza böyük təsir göstərir. Motivasiya fərdin məqsədinə çatmaq üçün davranışını istiqamətləndirən faktorları ifadə edir. Bu səbəbdən motivasiya məqsəd yönümlü davranışdır. Motivasiya əsasən iki növə bölünür: **İnteqrativ** və **İnstrumental**. İnteqrativ motivasiya, öyrənənin hədəf dil qrupuna qarşı müsbət münasibəti və həmin dil icmasına inteqrasiya olmaq arzusudur. **İ**nstrumental motivasiya isə öyrənənin sosial və iqtisadi məqsədlərə nail olmaq üçün dili öyrənməsini ifadə edir.

Gardner (1982) ikinci dil öyrənmə zamanı qarşılıqlı təsir göstərən bir sıra faktorları təsvir etmişdir. Onun modeli milli mühitdən çox, strukturlaşdırılmış sinif mühitində ikinci dil əldə etməyə yönəlmişdir. Model "ikinci dil əldə etmənin dörd xüsusiyyətini – sosial və mədəni mühit, fərdi fərqliliklər, sinif mühiti və dil göstəricilərini qarşılıqlı əlaqələndirmək" məqsədi güdür [9].

Sosial və mədəni mühit öyrənənlərin digər mədəniyyətlərə və dillərə münasibətini müəyyən edir. Bu münasibətlər öyrənənin uğuruna müsbət təsir göstərir. Məsələn, Böyük Britaniyada tək mədəniyyətli mühitdə azlıq qrupları ölkənin dominant dilini mənimsəyir. Gardnerin modeli həmçinin "dörd fərdi fərqi – intellekt, dil qabiliyyəti, motivasiya və situasional narahatlıq" (Giles və Coupland) ikinci dil öyrənmə prosesində ən təsirli faktorlar kimi təqdim edir [8].

Model öyrənmə təcrübəsinin dil və dil olmayan nəticələrini göstərir. Dil nəticələri dil biliyi və bacarıqlarını ifadə edir. Dil olmayan nəticələr isə fərdin dəyərlər və inanclarla bağlı münasibətlərini əks etdirir. Ellis (1997) bildirir ki, həm dil, həm də dil olmayan səbəblərlə motivasiya olunan öyrənənlər daha yüksək səviyyədə dil bacarığına malik olurlar. Beləliklə, motivasiya səy, arzu və təsirin birləşməsidir [6].

Motivasiya dil öyrənmə prosesində həyati rol oynayır. Motivasiya olmadan müəllimlər öz işini uğurla apara bilməzlər. Həvəs motivasiyanın əsasıdır və insanın daxili məqsəd və arzuları ilə bağlıdır. Uğurlu öyrənmə öyrənənin həvəsi ilə birbaşa əlaqəlidir və müəllimin rolu bu həvəslə əlaqə qurma yollarını tapmaqdır. Öyrənənlər keyfiyyətli təlimə, məlumat mübadi-

ləsinə, qarşılıqlı əlaqəyə və mənalı çıxış imkanlarına ehtiyac duyurlar ki, motivasiyaları davam etsin. Motivasiya dalğalanır və müəllimlər üçün motivasiyanı daim yüksək səviyyədə saxlamaq çətin bir vəzifədir.

Təhsil insan cəmiyyətinin inkişafında əsas amillərdən biri olaraq daim dəyişir və müasir dövrün tələblərinə uyğunlaşır. Texnologiyanın təhsilə inteqrasiyası, onlayn təhsil formalarının populyarlaşması və müasir tədris metodlarının tətbiqi təhsilin daha əlçatan, interaktiv və effektiv olmasına imkan yaradır. Bu prosesdə tələbələrin fəal iştirakı və onların fərdi xüsusiyyətlərinə uyğun yanaşmalar mühüm rol oynayır.

Müasir təhsil yanaşmaları yalnız bilik ötürmək deyil, həm də tənqidi düşünmə, problem həlletmə, əməkdaşlıq və yaradıcılıq kimi bacarıqları inkişaf etdirməyə yönəlib. Bu, tələbələrin gələcək həyatlarında uğur qazanması üçün zəruri olan çoxşaxəli qabiliyyətlərin formalaşmasını təmin edir. Eyni zamanda, motivasiya və fərdi öyrənmə metodlarının rolu onların təhsildə daha aktiv və məqsədyönlü olmasına kömək edir.

Dil öyrənmə prosesində də situasiyaya əsaslanan yanaşmalar və motivasiya amilləri uğurun açarıdır. Dilin mənalı kontekstlərdə öyrənilməsi və şagirdlərin təcrübə vasitəsilə öz bacarıqlarını sınaması tədrisin effektivliyini artırır. Beləliklə, müasir tədris metodlarının tətbiqi və motivasiya faktorlarının nəzərə alınması, ümumilikdə, təhsil sisteminin keyfiyyətini yüksəldir və gələcək nəsillərin daha yaxşı hazırlanmasına zəmin yaradır.

***İşin elmi nəticəsi:*** Müasir tədris metodlarının tətbiqi nəticəsində tələbələrin tənqidi düşünmə, problem həlletmə və yaradıcılıq bacarıqlarında nəzərəçarpacaq inkişaf müşahidə olunmuşdur. Araşdırma sübut edir ki, texnologiyanın inteqrasiyası tədris prosesini daha effektiv və fərdiləşdirilmiş hala gətirir. Fərdi və kooperativ öyrənmə modelləri öyrənmənin keyfiyyətinə və uzunmüddətli yaddaşa müsbət təsir göstərir.

***İşin elmi yeniliyi:*** Tədqiqatda ənənəvi təlim metodlarının müasir texnoloji vasitələrlə sintez olunması yeni bir pedaqoji model kimi təklif olunur. Situasiyaya əsaslanan dil öyrənmə yanaşması, tələbənin real həyatda dil bacarıqlarını mənimsəmə effektivliyini artırmaq baxımından yeni bir istiqamət kimi irəli sürülür. İlk dəfə olaraq, motivasiya və fərdi öyrənmə strategiyalarının birgə təhlili tələbənin nailiyyətinə təsir edən kompleks amil kimi elmi əsaslandırılmışdır.

***İşin tətbiqi əhəmiyyəti:*** Müasir təlim strategiyaları müəllimlərə daha effektiv tədris planlaması və tələbəyə uyğun yanaşmalar qurmaq imkanı verir. Onlayn və mobil texnologiyaların istifadəsi coğrafi maneələri aradan qaldıraraq daha geniş təhsil imkanları yaradır. Bu yanaşmalar vasitəsilə müəllimlər tələbələrin iştirak səviyyəsini və motivasiyasını artıraraq öyrənməni daha nəticəyönümlü edə bilirlər.

İşin iqtisadi səmərəsi: Rəqəmsal platformaların istifadəsi kağız, infrastruktur və tədris resursları üzrə xərcləri azaldır. Onlayn və hibrid təhsil modelləri vasitəsilə daha çox tələbənin eyni resurslarla təhsil alması təmin olunur ki, bu da təhsilin vahid xərcini azaldır. Əmək bazarına uyğun bacarıqların inkişafı nəticəsində məzunların işə düzəlmə faizi artır, bu da uzunmüddətli iqtisadi fayda yaradır.

**Ədəbiyyat**


1. Dziuban, C., Graham, C. R., Moskal, P. D., Norberg, A., & Sicilia, N. Blended learning: the new normal and emerging technologies // Springer Open, Germany: International Journal of Educational Technology in Higher Education, – 2018. 15, – p. 1-16.
2. Finn, P. Critical thinking: Knowledge and skills for evidence-based practice // – Rockville, MD, USA: Language, Speech, and Hearing Services in Schools, – 2011. – p. 123-134.
3. Harmer, J. The Practice Of English Language Teaching / J.Harmer. – Harlow, England: Pearson Education, – 2015. – p. 148.

4. Richards, J.C., Rodgers, T.S. Approaches and Methods in Language Teaching. / J.C.Richards, T.S.Rodgers. – Cambridge: Cambridge University Press, – p. 424.
5. Martinez, M.E. What is Problem Solving? Math Forum / USA. Drexel University, – 1998, April 1. – 1-4.
6. Ellis, R. Second Language Acquisition by Rod Ellis. / R.Ellis. – Oxford: Oxford University Press, – 1997. – p. 638.
7. https://www.scribd.com/document/98193146/HALLIDAY-7-Functions-of-Language
8. https://onlinelibrary.wiley.com/doi/abs/10.1111/josl.12233
9. https://www.scirp.org/reference/referencespapers?referenceid=2845161
10. file:///C:/Users/ACER/Downloads/Modern_Teaching_Methods_in_Education.pdf
11. file:///C:/Users/ACER/Downloads/334-336%20(3).pdf


**N.A.Alizada**

**The Application of Modern Teaching Methods in English Language Instruction and Student Motivation Processes**

***Summary***

Modern education has undergone significant changes with the advancement of technology. Online and technology-based approaches that complement traditional classroom teaching make education more accessible and interactive. Contemporary methods – such as flipped classrooms, spaced learning, gamification, self-directed learning – enhance students' active participation, critical thinking, and problem-solving skills. The integration of technology and motivation, especially in language learning, are key factors for success. The role of the teacher is not only to deliver information but also to guide learners and foster enthusiasm for learning.

***Keywords:*** *modern teaching methods, technology, motivation, the role of the teacher*

**Н.А.Ализада**

**Применение современных методов обучения в преподавании английского языка и процессы мотивации студентов**

***Резюме***

Современное образование претерпело значительные изменения с развитием технологий. Онлайн - и технологически ориентированные подходы, дополняющие традиционные занятия в классе, делают обучение более доступным и интерактивным. Современные методы – перевёрнутый класс, интервальное обучение, геймификация, самообразование – усиливают активное участие учащихся, критическое мышление и навыки решения проблем. Интеграция технологий и мотивация, особенно в изучении языков, являются основными условиями успеха. Роль учителя заключается не только в передаче информации, но и в направлении учащегося и создании интереса к обучению.

***Ключевые слова:*** *современные методы обучения, технологии, мотивация, роль учителя*

*Rəyçi: f.f.d., b/m. N.M.Əliyeva*

*Redaksiyaya daxil olub: 05.08.2025*